AzerGold

QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Korporativ Sosial Məsuliyyət Komitəsinin**

**İllik Hesabatı**

**BAKI – 2021**

MÜNDƏRİCAT

GİRİŞ ........................................................................................................................ 3
Sosial layihələr ........................................................................................................ 4
Ekoloji layihələr ....................................................................................................... 5
Tarixi-mədəni irsə töhfə ............................................................................................ 6
İanələr.......................................................................................................................... 7
Maddi yardım ........................................................................................................... 7

# GİRİŞ

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Azərbaycan Respublikasının Prezidentinin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamına əsasən təsis edilmişdir. "AzerGold" QSC ölkə ərazisində əlvan və qara metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, idarə olunması, emalı və satışı, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

Təbii resurslardan səmərəli istifadə, dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik "AzerGold" QSC-nin idarəçiliyinin təməl prinsiplərini təşkil edir. Cəmiyyət fəaliyyətinin ətraf mühit, hasilat ərazilərində yaşayan yerli əhali və icmalara, habelə onların ayrılmaz hüquqlarına göstərə biləcəyi mümkün təsiri haqqında məlumatlıdır və bu təsirin ədalətli şəkildə tənzimlənməsi Cəmiyyətin Sosial Təsir və Məsuliyyət Siyasəti çərçivəsində həyata keçirilir.

"AzerGold" QSC-nin Sosial Təsir və Məsuliyyət Siyasəti milli qanunvericilik, dağ-mədən sahəsində ən mütərəqqi beynəlxalq təcrübə, "Layihələrin maliyyələşdirilməsi zamanı ekoloji və sosial risklərin müəyyən edilməsi, qiymətləndirilməsi və idarəçiliyi üzrə Ekvator Prinsipləri", "BMT-nin biznes və insan hüquqları üzrə Rəhbər Prinsipləri"nin tələbləri nəzərə alınmaqla formalaşdırılır və davamlı olaraq təkmilləşdirilir.

Sosial Təsir və Məsuliyyət Siyasəti Cəmiyyətin nəzdində 2017-ci ilin oktyabrından etibarən fəaliyyətə başlamış Korporativ Sosial Məsuliyyət (KSM) Komitəsi tərəfindən formalaşdırılır və icra edilir. Komitə kollegial orqandır və dövri olaraq fəaliyyəti barədə hesabatlar dərc edir. Komitə tərəfindən sosial məsuliyyət siyasətinin istiqamətləri üzrə icrası 1 il və daha artıq müddət tələb edən və ya hər il dövri olaraq keçirilməsi planlaşdırılan uzunmüddətli layihələr icra edilir.Sosial Təsir və Məsuliyyət Siyasəti çərçivəsində mütəmadi olaraq icra edilən layihələr ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

# SOSİAL LAYİHƏLƏR

## “Öncə sağlamlıq!” səyyar tibbi müayinə aksiyası

06-08 aprel tarixlərində “AzerGold” QSC və Bakı Sağlamlıq Mərkəzinin birgə təşkilatçılığı ilə Daşkəsən rayonun Quşçu kəndində səyyar tibbi müayinə aksiyası keçirilib. Ümumdünya Sağlamlıq Gününə həsr edilən və “Öncə sağlamlıq!” devizi altında təşkil olunan aksiyada Quşçu Çovdar, Çaykənd və Şadax kəndlərinin sakinləri ödənişsiz olaraq terapevt, kardioloq, pediatr, USM, EKQ, qanın ümumi analizi və şəkərin təyini müayinələrindən yararlanıblar. Müayinə prosesi çərçivəsində xəstəliklərin vaxtında və düzgün təyinatlandırılması və karonavirusla mübarizə məqsədilə sakinlərin maarifləndirilməsi də həyata keçirilib. Tibbi müayinə aksiyasında peşəkar həkim heyəti tərəfindən səyyar hospital və mobil reanimasiya avtomobilləri vasitəsilə 3 gün müddətində icra edilib, nəticədə 400 nəfər sakin müayinə edilib. Sosial aksiyanın məqsədi Cəmiyyətin fəaliyyət göstərdiyi bölgədə yaşayan ailələrin qayğı ilə əhatələnməsi, yerli əhali arasında profilaktik müayinə mədəniyyəti və sağlam həyat tərzinin təbliğidir.

## “Görmə məhdudiyyətli insanlara innovativ dəstək layihəsi”

13 Noyabr – Beynəlxalq Gözdən Əlillər Günündə məhdud fiziki imkanlı insanlar üçün Gəncə Regional İnformasiya Mərkəzinə Brayl əlifbasını interaktiv yolla daha asan və əyləncəli öyrənməyə kömək edən innovativ cihazlar ianə edilib. Cəmiyyətin əməkdaşları Daşkəsən rayonunda yaşayan görmə məhdudiyyətli insanların evlərində qonaq olub, onlara “Braille teach” qurğularını təqdim ediblər.

Əsasən məktəbəqədər yaşda olan uşaqlara fərdi qaydada Brayl əlifbasını öyrədən, onların asudə vaxtlarının təşkilinə səsli kitablar və oyunlar vasitəsilə dəstək olan “Braille teach” cihazı onların şifahi nitqi və əqli inkişafı üçün nəzərdə tutulub. Layihənin məqsədi görmə məhdudiyyətli insanların qayğı ilə əhatələnməsi, onların sosial həyata adaptasiyasiyası, oxuma vərdişlərinin formalaşması, asudə vaxtlarının təşkilinə dəstək göstərməklə yanaşı, yerli startapların inkişafını təşviq etməkdir.

## “Şəhid və qazi ailələrinə sosial dəstək aksiyası”

05-08 noyabr tarixlərində Cəmiyyətin kollektivi müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində əldə etdiyi şanlı qələbənin birinci ildönümü – Zəfər Günü münasibətilə Daşkəsən rayonunda şəhid və qazi ailələrini ziyarət edib. Səhmdar Cəmiyyətin əməkdaşları ümumilikdə 116 şəhid və qazi ailəsinin evlərində qonaq olublar. Sosial aksiya çərçivəsində Daşkəsən rayonunda qeydiyyatda olan Vətən müharibəsi şəhidlərinin aztəminatlı ailələrinə birdəfəlik bank kartları hədiyyə edilib. Bununla yanaşı, şəhid ailələri və ötən il döyüşlərdə yaralanmış qazilərimizə bayram sovqatları təqdim olunub.

## EKOLOJİ LAYİHƏLƏR

### Beynəlxalq Sahilyanı Təmizlik Gününə həsr edilmiş ekoloji aksiya

“AzerGold” QSC-nin törəmə müəssisəsi “Daşkəsən Dəmir Filiz” MMC-nin təşəbbüsü və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) dəstəyi ilə Daşkəsən rayonunda yerləşən Güney-Zağalı su anbarının ətrafında ekoloji aksiya keçirilib. Beynəlxalq Sahilyanı Təmizlik Gününə həsr edilmiş aksiya çərçivəsində “AzerGold” QSC və ETSN-nin əməkdaşlarının iştirakı ilə su hövzəsinin ətrafı müxtəlif məişət tullantılarından təmizlənib, tullantılar çeşidlənərək təkrar emala yönəldilib. Bununla yanaşı, əraziyə ətraf mühitinin mühafizəsinə dair maarifləndirici lövhələr yerləşdirilib. Tədbirin əsas məqsədi su hövzələrində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin tullantılarla zibillənməsinin qarşısını almaq və təbiətin qorunmasına töhfə verməkdir. Aksiya çərçivəsində, həmçinin balıq növlərinin təbii populyasiyasının artırılması məqsədilə su hövzəsinə yerli şəraitə uyğun olaraq, “Qırmızı kitab”a daxil edilmiş qızılxallı forel körpələri buraxılıb.

### “Təbiətə sayğı, gələcəyə qayğı”

“AzerGold” QSC və “Regional İnkişaf” İctimai Birliyinin (RİİB) təşkilatçılığı ilə 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr olunmuş “Təbiətə sayğı, gələcəyə qayğı” devizi altında ekoloji aksiya keçirilib. Daşkəsən şəhərində təşkil edilən aksiyada Cəmiyyətin əməkdaşları, RİİB-nin könüllüləri və məktəblilər iştirak ediblər. Aksiya çərçivəsində Daşkəsən şəhərinin parklarındakı ağaclara quş yuvaları və yem qabları asılıb, yemliklərə dən tökülüb. Bununla yanaşı, “Daşkəsən” dəmir filizi sahəsi, eləcə də şəhərin yaşıllıq sahələrində şam ağacları əkilib. Yeni əkilən ağaclar suvarılaraq onlara aqrotexniki qaydada qulluq göstərilib. Qeyd edək ki, quş yuvaları, peşə təhsili müəssisələri ilə əməkdaşlıq layihəsi çərçivəsində “AzerGold” QSC-nin sifarişi əsasında Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin şagirdləri tərəfindən hazırlanıb. Aksiyanın əsas məqsədi ətraf mühitin qorunması, zərərverici həşəratlarla mübarizədə mühüm rol oynayan quş növlərinin sayının artırılması, həm də məktəblilərə ətraf mühitə sevgi və qayğı hisslərinin aşılanmasına dəstək xarakteri daşıyır.

Milli Dirçəliş Gününə həsr olunmuş ekoloji aksiya

17 noyabr tarixində Daşkəsən rayonunda yerləşən “Çovdar” mədənində Milli Dirçəliş Günü münasibətilə ağacəkmə aksiyası keçirilib. Yaşıllıq sahələrinin artırılması və ekoloji tarazlığın təmin edilməsinə töhfə vermək məqsədilə təşkil edilən aksiyada “AzerGold” QSC-nin kollektivi iştirak edib. Aksiya çərçivəsində təqribən 1 hektar ərazidə yerli şəraitə uyğun, ümumilikdə 2000-ə yaxın ting əkilib, həmçinin xüsusi ayırılmış əraziyə palıd toxumları səpilib. Yeni əkilən ağac tingləri və toxumlar suvarılaraq onlara aqrotexniki qaydada qulluq göstərilib.

## TARİXİ-MƏDƏNİ İRSƏ TÖHFƏ

### Çovdar nekropolu layihəsi

2021-ci ilin avqust-sentybar aylarında Cəmiyyətin Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinin 4-cü topaqələviləşdirmə ərazisində həyata keçirilən tikinti-quraşdırma işləri zamanı qədim maddi mədəniyyət qalıqlarına dair yeni fraqmentlər aşkar edilib. Üzə çıxarılan arxeoloji abidənin araşdırılması məqsədilə ərazidə işlər dərhal dayandırılıb, arxeoloji ekspediyanın təşkil edilməsi üçün Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutuna müraciət edilib.

Heydər Əliyev Fondunun dəstəyi ilə "AzerGold" QSC və AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu arasında 3 sentyabr 2021-ci il tarixində bağlanmış müqavilə çərçivəsində ərazidə çöl-tədqiqat işləri aparılıb. Arxeoloji tədqiqat prinsiplərinə uyğun olaraq ərazidə aşkar edilmiş qəbirlər təmizlənib, foto və qrafik təsvirləri çəkilib və müvafiq qeydlər aparılıb. Maddi mədəniyyət nümunələri ərazidən götürülərək qablaşdırılıb, kameral tədqiqatların aparılması üçün İnstitutun arxeoloji fonduna təqdim edilib.

Arxeoloqların qənaətinə görə, aşkar olunan yeni arxeoloji abidə 2019-cu ildə Çovdar qızıl mədənin 3-cü topaqələviləşdirmə sahəsində tədqiq edilmiş nekropolun bir hissəsidir. Həmin dövrdə Çovdar nekropolunda aparılmış qazıntılar zamanı 156 qəbir, 6000-dən çox eksponat tapılıb və tədqiq edilib. Hazırda həmin nümunələr əsasında yerli və əcnəbi mütəxəssislərin birgə əməkdaşlığı ilə nüfuzlu beynəlxalq laboratoriyalarda analizlər aparılır. Analiz təhlillərinin nəticəsində qədim tayfaların regionun digər xalqları ilə qohumluq əlaqələri barədə genetik məlumatlar əldə ediləcək. Qədim tayfaların burada məskunlaşma tarixi, dəfn olunanların cinsi, yaşı, xəstəlikləri, ölüm səbəbi, qida rasionu öyrəniləcək. Bununla da, qədim insanların məişəti, həyat tərzi, məşğulluqları, həmin dövr üçün bölgədə xarakterik olan epidemik xəstəliklər müəyyənləşəcək. Həmçinin nekropoldan tapılmış metal əşyalar üzərində həyata keçirilən spektral analizlər onların tərkibinin öyrənilməsinə imkan verəcək.

### Nizami Gəncəvi İli çərçivəsində milli mədəniyyətimizin təbliğinə töhfə

Dekabrın 18-də Mədəniyyət Nazirliyinin dəstəyi və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin baş sponsorluğu ilə Akademik Milli Dram Teatrında Nizami Gəncəvi İli çərçivəsində hazırlanmış "İsgəndərə yeni namə" tamaşasının premyerası olub. Quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, müəllifi İlqar Fəhmi olan səhnə əsərinin məqsədi Nizami irsinin teatr sənəti vasitəsilə retranslyasiyası, Nizami fəlsəfəsini müasir sənət düşüncəsi müstəvisində aktuallaşdırmaqdır.

Dövlət rəsmilər, mədəniyyət və incəsənət xadimlərinin izlədiyi premyera maraqla qarşılanıb.

## İANƏLƏR

12 fevral tarixində Prezident İlham Əliyevin Fərmanı ilə ərazi bütövlüyümüzün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə yaradılmış “YAŞAT” Fonduna ianə edilib. “AzerGold” QSC-nin Korporativ Sosial Məsuliyyət Komitəsi tərəfindən aylıq 25 min manat məbləğində olmaqla, il ərzində ümumilikdə 300 min manat məbləğində vəsaitin ianə edilməsinə dair qərar qəbul edilib. Beləliklə, yanvar ayı üçün nəzərdə tutulmuş vəsaitin Fondun hesabına köçürülməsi təmin edilib.

***

“AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşları Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə Qarabağ Dirçəliş Fonduna ianələr ediblər. Səhmdar Cəmiyyətin kollektivi aylıq vəzifə maaşlarından ümumilikdə 60 min manatdan çox məbləğdə vəsaiti müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun tarixi qələbəsi nəticəsində işğaldan azad edilmiş torpaqlarımızda icra olunacaq quruculuq işlərinə dəstək olmaq məqsədi ilə Fonda köçürüb.

## MADDİ YARDIM

Komitəyə il ərzində mütəmadi olaraq müxtəlif sosial həssas qruplara daxil olan şəxslərdən maddi yardımla əlaqədar 39 sorğu müvafiq yoxlama tədbirləri icra edildikdən sonra müsbət dəyərləndirilmiş və ölkə üzrə orta aylıq əməkhaqqı nəzərə alınmaqla, ümumilikdə 34 000 manat məbləğində birdəfəlik maddi yardım edilmişdir.